Kərim Tahirov,
Azərbaycan Milli Kitabxanasının direktoru,
Əməkdar mədəniyyət işçisi, professor

Ədibə İsmayılova,
Elmi işlər və kitabxana-informasiya
xidməti üzrə direktor müavini,
Əməkdar mədəniyyət işçisi,
tarix üzrə fəlsəfə doktoru

AZƏRBAYCAN MİLLİ KİTABXANASINDA ELEKTRON SƏNƏD FONDUNUN YARADILMASI VƏ İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

Xülasə: *Məqalədə kitabxana işi sahəsində baş verən əhəmiyyətli dəyişikliklərdən, kitabxana proseslərinin avtomatlaşdırılması, onun mühüm nəticələrindən biri kimi elektron kataloq-kartoteka sisteminin təşkil edilməsi, həmçinin elektron sənəd fondunun formalaşdırılması, elektron kitabxananın yaranması tarixi, bu sahədə aparılan tədqiqatlardan bəhs edilir. Müasir kitabxanaşünaslıqda elektron kitabxanaya müxtəlif baxışlar, fərqli yanaşmalar, bu məfhuma verilən tərifler təhlilə cəlb olunur.*

Eyni zamanda, Azərbaycan Milli Kitabxanasında elektron informasiya resurslarının vacib istiqamətlərindən biri kimi oxucuların istifadəsinə kitabların, dövri mətbuat nümunələrinin və digər ənənəvi sənədlərin tammətnli versiyalarının təqdim edilməsi vasitəsi ilə reallaşan elektron kitabxananın yaradılmasından bəhs edilir.

Məqaləyə cədvəl və diaqramların daxil edilməsi, faktik materialın çoxaspektli təhlili kitabxanada yaradılan elektron sənəd fondunun inkişaf istiqamətlərini izləməyə imkan verir.

Abstract: *The article talks about significant changes in the field of library work, automation of library processes, the organization of an electronic catalog card system as one of its important results, as well as the formation of an electronic document fund, the history of the creation of an electronic library, and researches conducted in this field. In modern librarianship, different views, different approaches, and definitions of this concept are involved in the analysis.*

In addition, as one of the important directions of electronic information resources in the National Library of Azerbaijan, it is mentioned that the creation of an electronic library is realized through the provision of full-text versions of books, periodicals and other traditional documents for the use of readers.

The inclusion of tables and diagrams in the article, the multi-faceted analysis of actual material allows to follow the directions of development of the electronic document fund created in the library.

Резюме: *В статье подробно рассказывается о кардинальных изменениях в сфере библиотечной работы: об автоматизации библиотечных процессов; об одном из важнейших итогов этих процессов – организации системы электронного каталога-картотеки, в том числе и формировании электронно-документального фонда; об истории создания электронной библиотеки и о проводимых в этой области исследованиях. Тщательно анализируются различные взгляды и индивидуальные подходы к концепции электронной библиотеки в современном библиотековедении, представлены разнообразные определения этого понятия.*

Помимо этого, в статье широко освещаются аспекты создания электронной библиотеки, осуществляющей свои функции посредством предоставления в читательское пользование полнотекстовых версий книг, образцов периодической печати и других традиционных видов документов. Необходимо отметить, что эта работа является приоритетным направлением электронно-информационных ресурсов в Азербайджанской Национальной Библиотеке.

Включение в статью таблиц и диаграмм, разносторонний анализ фактического материала позволяет в полной мере проследить пути развития электронно-документального фонда, созданного в библиотеке.

Açar sözlər: *Elektron kitabxana, elektron kolleksiya, elektron sənəd fondu, musiqi kitabxanası, qrammofon valı.*

Key words: *Electronic library, electronic collection, electronic document fund, music library, gramophone shaft.*

Ключевые слова: *Электронная библиотека, электронная коллекция, электронно-документальный фонд, музыкальная библиотека, грампластинка.*

XX əsrdə kitabxana işi sahəsində baş verən inqilabi əhəmiyyətli dəyişikliklərdən bəhs edərkən ilk növbədə kitabxana proseslərinin avtomatlaşdırılması, onun əhəmiyyətli nəticələrindən biri kimi elektron kataloq-kartoteka sisteminin təşkil edilməsi, daha sonra isə kitabxananın elektron sənəd fondunun formalaşdırılması vurğulanır.

Elektron kataloqların yaranması və inkişafı tarixinə diqqət yetirdikdə məlum olur ki, XX əsrdə kitabxana işində, biblioqrafik fəaliyyətdə meydana gələn ən əhəmiyyətli yeniliklərdən biri məhz elektron kataloqların yaradılması olmuşdu. Avtomatik kataloqun yaradılması ideyası çoxdan mövcud olsa da,

onun əvvəlcə mexaniki, daha sonra isə elektron mexaniki üsulla, xüsusi proqramlar əsasında reallaşdırılması sahəsində xeyli işlər görülsə də, onun effektiv bir sistem şəkilində reallaşması ancaq elektron-hesablama maşınlarından istifadə əsasında XX əsrin ikinci yarısında mümkün olmuşdu. 1960-cı illərdən başlayaraq ABŞ-da, əvvəlcə universitet və kollec kitabxanalarında, sonra isə Konqres Kitabxanasında, bir neçə il sonra isə keçmiş SSRİ-nin elmi texniki informasiya orqanlarında və ən böyük kitabxanalarında (SSRİ Dövlət İctimai Elmi-texniki Kitabxanasında, Ümumittifaq Xarici Ədəbiyyat Kitabxanasında, Lenin adına SSRİ Dövlət Kitabxanasında, SSRİ EA Təbiət Elmləri üzrə Fundamental Kitabxanasında), Ümumittifaq Kitab Palatasında yaradılan avtomatlaşdırılmış idarəetmə sistemlərinin ilk və ən əhəmiyyətli hissəsi biblioqrafik informasiyanın toplanması, emalı, saxlanması, axtarışı və verilməsi proseslərini avtomatlaşdırmağa imkan verən elektron kataloq idi.

Elektron kitabxanaların yaranması ideyası XX əsrdə elmi-texniki inqilab nəticəsində sənəd-kommunikasiya sistemlərində baş vermiş "informasiya partlayışı" adını almış proseslə, yəni, bəşəriyyətin yaratdığı və sənəd dövriyyəsinə daxil olan informasiyanın az bir zaman ərzində dəfələrlə artması nəticəsində meydana gəlmişdi.

Elektron kitabxana ideyasının ilk dəfə təklif edilməsindən söhbət gedəndə amerikan mütəxəssislərinin əsərlərinin adı çəkilir. Məsələn, V.E.Buş 1945-ci ildə "Biz necə fikirləşə bilərik" məqaləsində, C.S.R.Likliderin 1965-ci ildə nəşr edilmiş "Kitabxanalar gələcəkdə" kitabında bu zərurətdən bəhs edilir.

1965-ci ildə ABŞ Konqres Kitabxanasında EHM-texnologiyalarına əsaslanan ilk praktiki işlərə, ilkin mərhələ kimi maşınlaoxunan kataloqun yaradılmasına başlandı. Bunun ardınca həmin texnologiya Ohayo Kollec Kitabxanalarının Toplu Elektron Kataloqları Sistemində (bu layihənin adı sonradan dəyişsə və miqyası genişlənsə də, akronim kimi OCLC hələ də qalmaqdadır) tətbiq edildi və kataloqa giriş imkanı təmin edildi.

Müasir mənada elektron kitabxananın yaranması XX əsrin son rübünə təsadüf edir. O zaman elmi jurnalların ilk elektron kitabxanaları layihələri yarandı. Bunlar 1987-1993-cü illərdə reallaşdırılmağa başlamış Mercury, CORE, Tulip, 1995-ci ildən başlamış JSTORE və High Wire Press və digər layihələr idi. Bu layihələr həm elmi, həm də iqtisadi məqsədlərlə həyata keçirilmişdi. Bu layihələrə uyğun olaraq əsasən ən vacib jurnalların vahid arxivinin yaradılması və onlara geniş əlyetərliyin təmin edilməsi, kitabxanaların jurnal fondlarının təkrarlanmasının aradan qaldırılması ilə komplektləşdirmə xərclərinin azaldılması kimi vəzifələr yerinə yetirilirdi.

1990-cı illərin ortalarından etibarən bir çox elmi jurnallar yalnız elektron formada nəşr olunmağa başladı. Bu, iqtisadi baxımdan xeyli sərfəli idi. Eyni zamanda, çoxlu sayda mətbuat orqanları - jurnallar, qəzetlər, xəbər bülletenləri və s. öz əvvəlki buraxılışlarının elektron versiyalarını yaratmağa və həmin elektron arxivlərə internet üzərindən pulsuz əlyetərlik verməyə başladılar. Məhz bu zaman böyük kitabxanalar öz fondlarını elektronlaşdırmağa başladılar. İlk növbədə köhnə və fiziki məhv təhlükəsi altında olan materiallar elektronlaşdırılırdı.

O zamandan bəri elektron kitabxanaların yaradılması və istifadəsi üzrə xeyli tədqiqatlar aparılmış, böyük həcmdə praktiki işlər görülmüşdür. Dünyanın qabaqcıl kitabxanalarının yaratdıqları elektron kitabxanalarda toplanmış tammətnli sənəd fayllarının sayı indi milyonlarla ölçülür. Buna görə də, müasir kitabxanaların yaradılmasından bəhs edərkən mütləq kitabxanada elektron informasiya resurslarının vacib istiqamətlərindən biri kimi oxucuların istifadəsinə kitabların, məqalələrin və digər ənənəvi sənədlərin tammətnli versiyalarının təqdim edilməsi vasitəsi ilə reallaşan elektron kitabxanaların yaradılmasına böyük diqqət yetirilir.

Keçən 50 ilə yaxın müddət ərzində elektron kitabxanalar ətrafında qızğın diskussiyalar olmuş, bu mövzuya dair minlərlə məqalə, yüzlərlə monoqrafiya nəşr edilmiş, İFLA-nın, digər beynəlxalq və milli kitabxana təşkilatlarının tədbirlərində, konfranslarda, elmi seminarlarda bu mövzu müzakirə edilmişdir.

Elektron kitabxanaların sənəd kommunikasiyalarında rolu, funksiyası, yaradılması, istismarı və digər məsələlər bir çox müasir elmi, tədris, metodiki, istehsalat təyinatlı kitablarda da müzakirə edilmiş, orada bu məfhumun müxtəlif tərifləri verilmişdir.

Buna baxmayaraq, elektron kitabxanalarla əlaqədar bir çox suallar üzrə hələ də yekdil rəy yoxdur. Hətta bəzi terminlər üzrə belə mükalimələr davam edir. Bir çox mütəxəssislər "elektron kitabxana" deyil, "rəqəmsal kitabxana" və ya "virtual kitabxana" terminlərindən istifadə edirlər və bu seçimi əsaslandırmağa çalışırlar. Bəzi hallarda müəyyən ölkələrin elmi və peşə ictimaiyyəti terminin bir variantına üstünlük verir. Məsələn, ABŞ-da çox zaman "rəqəmsal kitabxana" variantına üstünlük verirlər. Bu termin ilk dəfə "rəqəmsal kitabxana" formasında 1988-ci ildə ABŞ-ın dövlət təşkilatı olan Milli Tədqiqat Təşəbbüsləri Korporasiyasının (Corporation for National Research Initiatives) məruzəsində istifadə edilmişdir. Terminin populyarlaşdırılması isə 1994-cü ildə ABŞ-ın digər dövlət qurumları - NSF / DARPA / NASA tərəfindən işlənib hazırlanmış "Rəqəmsal Kitabxana Təşəbbüsü" (Digital Libraries Initiative) ictimaiyyətə təqdim edildikdən sonra başlamışdır.

Müasir kitabxanaşünaslıqda elektron kitabxanaya müxtəlif baxışlar, fərqli yanaşmalar bu məfhuma verilən tərifərin sayının xeyli çox olmasında da özünü

göstərir. Məsələn, Yevgeni Qornıy və Konstantin Viqurskinin "Elektron kitabxanaların inkişafı: dünya və rus təcrübəsi, problemlər və perspektivlər" adlı məqaləsində dünyanın müxtəlif ölkələrinin alim və mütəxəssislərinin elektron kitabxana məfhumuna 12 fərqli tərifi verilmişdir.

Məqalənin müəllifləri həmin tərifləri qeyd etdikdən sonra öz variantlarını belə təqdim edirlər: *"Elektron kitabxana sistemin özündə lokallaşmış, həmçinin telekommunikasiya vasitələri ilə sistemə əlyetər olan müxtəlif elektron sənəd kolleksiyasını etibarlı şəkildə saxlamağa və səmərəli şəkildə istifadə etməyə imkan verən informasiya sistemidir"* [14].

Həmin tərifdən fərqli olaraq müasir elektron kitabxanalara həsr olunaraq ABŞ-da nəşr edilmiş "How to Bild Digital Library" (Rəqəmsal kitabxananı necə yaratmalı) adlı vəsaitdə belə kitabxanaya verilən tərifdə göstərilir ki, "rəqəmsal kitabxana mətn, video, audio daxil olmaqla rəqəmsal obyektlərin onlara əlyetərlik və axtarış metodları olmaqla həmin obyektlərin seçilməsi, təşkil və təchiz edilməsini əhatə edən ixtisaslaşdırılmış kolleksiyadır". Yeni texnologiyaların təsiri ilə "elektron kitabxana", "rəqəmsal kitabxana" və ya "virtual kitabxana"ların yaranması məsələsinə məşhur belorus alimi və kitabxanaçısı professor R.S.Motulski də toxunmuşdur. Onun fikrincə, son onilliklər ərzində meydana gəlmiş "mediateka", "virtual kitabxana", "rəqəmsal kitabxana", "elektron kitabxana" və ya "hibrid kitabxana" kimi məfhumların istifadə edilməsi minillik tarixi olan kitabxananın mahiyyətinin anlaşılmaması, onun sosial təyinatını qısamüddətli reklam məqsədləri və marketinq maraqları ilə əvəz etməyə can atılması ilə izah etmək olar. Alimin dediklərindən belə bir nəticə çıxarmaq olar ki, "kitabxana" kimi geniş əhatəli məfhum olduğu halda, belə süni, lüzumsuz məfhumlara ehtiyac yoxdur.

Yuxarıda qeyd edilən tərifərdən əlavə, elektron kitabxanalara verilən tərifərdən maraq kəsb edən variantlardan biri Rusiya Dövlət Kitabxanası tərəfindən nəşr edilmiş "Kitabxana ensiklopediyası"nda verilmişdir: "*Rəqəmsal kitabxana (elektron kitabxana), tammətnli və multimediya sənədlərin sistemdə yerləşdirilə bilən və maşınlaoxunan (elektron) formada istifadə edilə bilən, tərkibindəki elektron sənədlərə bir nöqtədən vahid əlyetərliyi təmin edə bilən interfeysi olan proqram təminatına malik avtomatlaşdırılmış informasiya sistemi növüdür. Elektron kitabxana lokal, regional, milli və beynəlxalq miqyaslı ola bilər"* [13].

Biz hesab edirik ki, bu tərif müasir elektron kitabxanaları xarakterizə edən ən mükəmməl tərifərdən biridir. Bundan başqa, biz "rəqəmsal kitabxana", "virtual kitabxana", "mediateka" terminlərini "elektron kitabxana" termininin sinonimləri hesab edirik.

Elektron kitabxananın struktur quruluşu məsələsinə gəldikdə isə orada bir və ya bir neçə elektron kolleksiya ola bilər. Bu məqamda "elektron kolleksiya"

dedikdə, tərkibində birtipli formal əlamətlərə malik elektron sənəd massivi nəzərdə tutulur. Elektron kitabxanaya daxil olan sənədlərin kitabxanada ənənəvi formada variantı olması mütləq deyil. Yəni, bura elə sənədlər daxil ola bilər ki, kitabxananın fondunda olmasın. Belə sənədlərə misal olaraq proqram təminatını, elektron formada buraxılmış nəşrləri, elektron xəritələri və s. göstərmək olar.

Əgər amerikan kitabxanaçılığında elektron (rəqəmsal) və virtual kitabxanalar sinonim hesab edilirsə, ensiklopediyada virtual kitabxana rəqəmsal kitabxananın elə bir növü kimi şərh edilir ki, burada xüsusi texniki və proqram təminatından, şəbəkə protokollarından istifadə edilməklə bir kitabxananın öz daxili elektron resursları ilə yanaşı, xarici informasiya resursları tələbatçılara vahid interfeys vasitəsi ilə bir şəbəkə ünvanından təqdim edilir. Bu zaman belə bir sual meydana gəlir. Kitabxananın istifadəçilərə sənədin elektron versiyasının, elektron formada digər informasiyanın təqdim edilməsinin hansı üstünlükləri var? Bu üstünlüklərə aşağıdakıları aid etmək olar:

1. Kitabxananın fondunda olan çox soruşulan, lakin nüsxələrinin sayı az olan nəşrlərin lokal şəbəkədən keçməklə kitabxanada qurulmuş fərdi kompüterlər və ya simsiz daxili şəbəkə (Wi-Fi) vasitəsi ilə eyni zamanda çox sayda tələbatçının istifadəsinə imkan yaradılması, başqa sözlə, nüsxə ilə bağlı məhdudiyyətin aradan götürülməsi;

2. Kitabxananın fondunda olan nadir, texniki vəziyyəti bərbad, adi qaydada istifadə zamanı zərər görə biləcək nəşrlərin və digər sənədlərin qorunması üçün istifadəçilərə onun ancaq elektron versiyasının lokal şəbəkədən keçməklə kitabxanada qurulmuş fərdi kompüterlər və ya simsiz daxili şəbəkə (Wi-Fi) vasitəsi ilə eyni zamanda çox sayda tələbatçının istifadəsinə imkan yaradılması;

3. İstifadəçilərin soruşduqları, bir kitabxananın fondunda olmayan, lakin digər kitabxananın fondunda olan sənədin elektron versiyasının alınaraq lokal şəbəkədən keçməklə kitabxanada qurulmuş fərdi kompüterlər və ya simsiz daxili şəbəkə (Wi-Fi) vasitəsi ilə eyni zamanda çox sayda tələbatçının istifadəsinə imkan yaradılması;

4. İstifadəsi üçün artıq ümumi dövriyyədən çıxmış qurğu (qrammofon, kasetli audio və video maqnitofon, mikrosənəd oxuyan qurğu və s.) tələb edən sənədlərin fərdi kompüter vasitəsi ilə oxunan elektron formata keçirilərək lokal şəbəkədən keçməklə kitabxanada qurulmuş fərdi kompüterlər və ya simsiz daxili şəbəkə (Wi-Fi) vasitəsi ilə eyni zamanda çoxlu sayda tələbatçının istifadəsinə imkan yaradılması;

5. Kitabxana tərəfindən yaradılan qeyri-kataloq tipli biblioqrafik məhsulun (biblioqrafik siyahılar, icmallar, göstəricilər, daycestlər) elektron versiyasının hazırlanaraq lokal şəbəkədən keçməklə kitabxanada qurulmuş fərdi kompüterlər

və ya simsiz daxili şəbəkə (Wi-Fi) vasitəsi ilə eyni zamanda çoxlu sayda tələbatçının istifadəsinə imkan yaradılması;

6. Kitabxananın internet saytı olduğu təqdirdə 1, 2, 3, 4 və 5-ci bəndlərdə qeyd edilən sənədlərin Kitabxananın saytı vasitəsi ilə qeyri-məhdud sayda tələbatçının istifadəsinə verilməsi;

7. Kitabxananın istifadəçilərinin çox maraqlandığı populyar mövzular, sənəd növləri və ya digər əlamətlər üzrə kitabxananın fondunda olan, lazım gəldikdə isə digər mənbələrdən əldə edilən informasiyanın toplanması, sahmanlanması, strukturlaşması, lazım gəldikdə daxili axtarış sistemi qurulması yolu ilə elektron bazalar, ayrıca tematik saytlar yaradılaraq tələbatçıların istifadəsinə verilməsi;

8. Fərdi və kollektiv tələbatçıların sifarişi ilə kitabxananın serverində saxlanan elektron sənədlərin onların elektron poçt ünvanına göndərməklə çatdırılması (sənədlərin elektron çatdırılması rejimində xidmət) imkanı.

Bu göstərilən üstünlüklərin reallaşdırıldığı kitabxanaya sözün tam mənasında elektron kitabxana demək mümkündür. Bundan əlavə, bu bəndlərdə göstərilən məsələləri elektron kitabxananın yaradılması istiqamətində görüləsi işlərin ardıcıllığı kimi də qəbul etmək olar.

Müasir elektron tipli kitabxanadan söhbət gedəndə onun vacib xüsusiyyətlərindən biri kimi ilk növbədə istifadəçilərə sənədin tam mətninin elektron versiyasının təqdim edilməsi qeyd edilir. Milli Kitabxanada 1998-ci ildən etibarən həyata keçirilməyə başlayan kompüterləşdirmə, elektronlaşdırma prosesinin vacib istiqamətlərindən biri də istifadəçilərə sənədlərin, informasiyanın elektron formatda təqdim edilməsidir.

Milli Kitabxanada elektron kitabxananın yaradılması sahəsində görülmüş işləri iki mərhələyə bölmək mümkündür.

Birinci mərhələ hazırlıq mərhələsidir. 1998-ci ildən başlayan və 2006-cı ilə qədər davam edən həmin mərhələdə bu sahədə görülən işlər müəyyənləşdirildi, texniki, proqram təchizatı məsələləri həll edildi, bu sahədə qabaqcıl təcrübə öyrənildi, bunun üçün lazımi struktur islahatları aparıldı, bu işi həyata keçirə bilən kadr potensialı formalaşdırıldı.

İkinci mərhələ isə elektron kitabxananın formalaşdırılması mərhələsidir ki, 2006-cı ildən başlayaraq indiyə qədər davam edir. Kitabxananın resursları əsasında elektron kitabxana yaradılması sahəsində ilk praktiki işlərə 2002-ci ildə başlanmışdır. O zaman "Gələcək naminə" Qeyri-Hökumət Təşkilatı beynəlxalq təşkilatlar və neft şirkətlərinin yardımı ilə Kitab.Az layihəsinin reallaşdırılmasına başlanıldı. Layihəyə uyğun olaraq respublikanın 18 iri dövlət kitabxanası, o cümlədən ali məktəb kitabxanaları bu işə cəlb edildi. Texniki dəstək kimi həmin

kitabxanalara, eləcə də M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasına kompüter, skaner, digər avadanlıq verildi, internet xətti açıldı, işçilərə təlim keçirildi. Daha sonra layihənin ayrıca internet saytı açıldı və iştirakçı kitabxanaların fondunun müəyyən qismini əks etdirən biblioqrafik məlumat, eləcə də seçilmiş kitabların elektron variantı həmin sayta yüklənməyə başlandı. Əslində bu, respublikada ilk açıq onlayn toplu korporativ kataloq (beynəlxalq kitabxana terminologiyası ilə desək, OPAC) və ilk onlayn korporativ elektron kitabxana layihəsi idi. Bu layihə bir neçə il davam etdi və xeyli miqdarda biblioqrafik yazı və tam mətn serverə yükləndi. Yaradılmış biblioqrafik və tammətnli informasiya resursları onlayn olaraq www.kitab.az domeni ilə əlyetər idi. Bu layihəyə uyğun olaraq kitabxananın fondunda olan minlərlə ədəbiyyat haqqında biblioqrafik yazı elektron kataloqa, çox miqdarda kitabın elektron versiyası isə tammətnli elektron bazaya daxil edildi.

Beynəlxalq təşkilatların yardımı ilə elektron kataloqun yaradılması layihəsini həyata keçirərkən M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası paralel olaraq müəyyən kitabların tammətnli resurslarının yaradılması üzərində çalışmağa başlayır. Kitabxana rəhbərliyi ilk növbədə istifadə olunacaq avadanlığın alınması üçün büdcədənkənar vəsaitin tapılması yollarını araşdırır. Bu dövrdə kitabxananın rəhbərliyinin diqqətini Açıq Cəmiyyət İnstitutunun Yardım Fondunun Bakı şöbəsinin elan etdiyi "Qutenberq-Azərbaycan layihəsi" adlı müsabiqə cəlb edir. Qeyd etmək zəruridir ki, "Qutenberq" layihəsinin əsası 1971-ci ildə ABŞ-ın Benidikt Universitetinin (İllinoys ştatı) Elektron Hesablama Mərkəzinin professoru Maykl Hart tərəfindən qoyulmuşdur. Layihənin müəllifinin sözlərinə görə, onun əsas məqsədi və vəzifəsi müxtəlif xalqların sənət nümunələrinin (əsasən bədii əsərlərin) elektron variantlarını ödənişsiz və asan yolla dünyaya yaymaqdan ibarət idi. M.Hart öz layihəsini ictimaiyyətə təqdim etdikdən sonra bir sıra mənbələrdən maliyyə və təşkilati dəstək aldı. Əvvəllər bu layihə ancaq Benidikt Universitetinin daxili imkanları hesablama şəbəkəsində əlyetər idi. Sonra ABŞ-da universitetlərin hesablama - EHM şəbəkələri birləşdikdən sonra bu resursa məsafədən əlyetərlik mümkün oldu və tədricən ona əlyetərliyin coğrafi əhatəsi genişləndi. Daha sonra, Ümumdünya Hörümçək Toru (WWW) yarandıqdan sonra isə ona dünyanın istənilən şəbəkəyə qoşulmuş kompüterindən bu layihənin internet saytına giriş mümkün oldu. Hal-hazırda bu layihənin ayrıca saytı, portalı var və burada dünyanın bir çox dillərində nəşr edilmiş 56 min addan çox kitabın elektron variantı toplanmışdır və bu layihənin verilənlər bazasındakı kitabların miqdarı indi də uğurla artmaqda davam etməkdədir.

Azərbaycan kitabxanalarının bu layihədə iştirakı təşəbbüsü 2002-ci ilə təsadüf edir. Həmin il Açıq Cəmiyyət İnstitutunun Yardım Fondunun Bakı şöbəsi

respublikada “Qutenberq” layihəsində iştirak etmək istəyənlər üçün müsabiqə elan etdi. Müsabiqədə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası, Xəzər Universiteti və AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu qalib gəldilər. Həmin ilin dekabr ayında “Qutenberq” layihəsinə uyğun olaraq Açıq Cəmiyyət İnstitutunun Yardım Fondunun Bakı şöbəsi ilə M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası arasında Azərbaycan ədəbiyyatının elektron kitabxanasının yaradılması və inkişafı üzrə qrant müqaviləsi imzalandı və bu qranta uyğun olaraq kitabxananın mütəxəssisləri üçün lazımi tədris kursu təşkil edildi, skaner, fərdi kompüterlər, proqram təminatı və s. satın alındı. Bunun ardınca, elektronlaşdırılacaq ədəbiyyat, ilk növbədə klassik ədəbiyyat nümunələri seçildi və praktiki işlərə başlandı və müəyyən edilmiş vaxtda yerinə yetirildi. Amma iştirakçı kitabxanalardan asılı olmayan səbəblər üzündən tammətnli fayllar internetə yerləşdirilmədi və sonradan, 2006-cı ildə həmin fayllardan M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının öz elektron kitabxanası yaradılan zaman istifadə edildi. Bu fayllar elektron kitabxananın “Filologiya elmləri. Bədii ədəbiyyat” bölməsinə yerləşdirilərək oxucuların istifadəsinə verildi.

Beləliklə, 1998-2005-ci illəri kitabxanada tammətnli elektron kitabxana yaradılması üzrə hazırlıq dövrü kimi qiymətləndirmək mümkündür.

Milli Kitabxanada avtomatlaşdırmanın, informasiyalaşdırmanın inkişafı, onun saytının təkmilləşdirilməsi, burada tammətnli informasiya resurslarının - elektron kitabxananın yaradılmasının gedişinə nəzər saldıqda müşahidə etmək mümkündür ki, bu sahədə fəaliyyətin daha yüksək fazaya keçməsi 2006-cı ilə təsadüf edir. Əgər biz bu prosesə elektron kitabxana yaradılması prizmasından baxsaq, 1998-2005-ci illəri bu istiqamətdə ilkin, hazırlıq mərhələsi kimi, 2006-cı ildən sonrakı dövrü isə burada sözün tam mənasında elektron kitabxana yaradılması mərhələsi kimi qiymətləndirə bilərik. 2006-cı ildə başlanan həmin prosesin ilk və əhəmiyyətli addımı kitabxanada müasir tələblərə cavab verən elektron kitabxananın formalaşdırılmasına imkan verən inzibati-idarəetmə strukturunun, müvafiq şöbə və bölmələrin yaradılması olmuşdu.

2006-cı ildən sonrakı dövrdə kitabxanada tammətnli elektron resursların yaradılması yolu ilə elektron kitabxananın formalaşdırılması üçün həyata keçirilmiş inzibati dəyişiklikləri, təkmilləşməni elektron kitabxananın yaradılması üçün lazım olan inzibati-struktur bazası kimi dəyərləndirmək olar. Göstərilən zamandan etibarən kitabxanada elektron kitabxana yaradılması sahəsində görülmüş işlər isə burada müasir tələblərə cavab verən elektron kitabxananın strukturunun formalaşmasına imkan vermişdir. Kitabxananın fondunda olan kitabların tammətnli elektron versiyalarının hazırlanması prosesi 1999-cu ildən başlayaraq 2006-cı ildə burada aparılan struktur islahatlarından sonra daha in-

tensiv şəkildə davam etdirilmişdir.

Kitabxanada ümummilli lider Heydər Əliyevin irsinin təbliği sahəsində mühüm işlər yerinə yetirilmiş, bu irsi özündə əks etdirən "Müstəqilliyimiz əbədidir" adlı kitabının cildlərinin elektron versiyası hazırlanıb lokal şəbəkədə elektron kitabxananın oxucularının istifadəsinə təqdim edilmişdi.

2008-ci ildə kitabxananın fondunda olan kitabların tammətnli elektron versiyalarının hazırlanması istiqamətində xeyli iş görülmüşdü. Belə ki, həmin ildə "Elektron resursların yaradılması şöbəsi" "Mir Cəlal Paşayev irsi" adlı materialların elektron versiyasını və CD variantını hazırlamışdır. Şöbənin fəaliyyətinin nəticəsi olaraq Azərbaycanın dahi şairlərinin irsi - "Nizami Gəncəvi irsi", "Füzuli irsi", "Hüseyn Cavid irsi" ərsəyə gətirilmişdir. "Görkəmli şəxslərin həyatı" silsiləsindən isə "Heydər Əliyev" və "İlham Əliyev: Bioqrafiya davam edir" kitablarının elektron versiyaları və CD variantı hazırlanaraq elektron kitabxananın oxucularının istifadəsinə verilmişdir.

2009-cu ildə "Azərbaycan kitabı" adlı 3 cildlik retrospektiv biblioqrafik göstəricisinin, "İlham Əliyev və mədəniyyət" adlı 2 cildlik kitab, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın fəaliyyəti haqqında "Культура и культурные шедевры Азербайджана-уникальное послание будущим поколениям" adlı kitabın elektron versiyaları hazırlanaraq Milli Kitabxananın saytında onların tam mətninə keçid düymələri yerləşdirilmişdir.

Həmin ildə Milli Kitabxanada "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı xeyli iş görülmüşdür. Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il, 12 yanvar tarixli sərəncamı ilə nəşr olunan kitablardan 94 kitabın (İ.Nəsiminin əsərləri, onun həyat və yaradıcılığı da daxil olmaqla "İ.Nəsimi irsi" adlı materialların, C.Cabbarlının əsərləri, onun həyat və yaradıcılığı da daxil olmaqla "C.Cabbarlı irsi", "Yusif Vəzir Çəmənzəminli irsi" və b.) elektron versiyası hazırlanmışdır. "Azərbaycanın kitab abidələri" adlı onlayn resursun yaradılması ilə əlaqədar olaraq Milli Kitabxanada respublikanın kitabxanalarında saxlanılan nadir kitab abidələri toplanmış, informasiya daşıyıcılarına köçürülmüş və eyni adlı elektron resurs yaradılmışdır. Xüsusi əhəmiyyətli nadir kitabların qorunub saxlanılması və nəsillərdən-nəsillərə ötürülməsi məqsədi ilə Milli Kitabxanada olan nadir kitabların bir qismi informasiya daşıyıcılarına köçürülmüşdür. "Müstəqilliyimiz əbədidir" çoxcildliyinin 24, 25 və 26-cı cildlərinin elektron versiyası hazırlanıb Milli Kitabxananın saytına yerləşdirilmişdir. Çoxcildliyin biblioqrafik göstəricisinin 1-ci hissəsi yəni, I-IX cildlərinin köməkçi aparatı hazırlanıb saytda yerləşdirilmişdir.

2010-cu ildən kitabxanada qəzet, kitab və jurnalların elektronlaşdırılması üçün xüsusi avadanlıqlar alındı və nəticədə rəqəmsallaşdırılma işi daha da sürətləndi. Bir vaxtlar kitabxanada cəmi bir nüsxəsi olan, arxiv fondunda qorunan kitabların elektronlaşdırılması oxucuların həmin kitablardan daha rahat şəkildə istifadəsinə imkan verdi. Müstəqil şöbə kimi fəaliyyətə başlayan Elektron kitabxanada 790 kitabın elektron variantı hazırlanaraq kitabxananın intranet və internet səhifələrində yerləşdirildi. İl ərzində ümummilli lider Heydər Əliyev irsini özündə əks etdirən "Müstəqilliyimiz əbədidir" kitabının 30 cildi elektron versiyada hazırlanıb elektron kitabxanaya daxil edildi. Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il, 12 yanvar tarixli sərəncamı ilə çap olunan əsərlərin elektron versiyasının hazırlanması işi davam edirdi.

2010-cu ildə rusdilli oxucular arasında Azərbaycanın klassik şairlərinin ədəbi irsinin daha geniş şəkildə təbliği məqsədilə "Elektron resursların yaradılması" şöbəsi tərəfindən müəyyən işlər görülmüşdür. Azərbaycanın dahi şairləri - Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Mirzə Ələkbər Sabir, Səməd Vurğun və digər klassik şairlərimizin rus dilində çap olunan şeirləri rəqəmsallaşdırılaraq elektron kitabxanada yerləşdirilmişdir.

2011-ci ildə Azərbaycan Respublikası Prezidentinin 2004-cü il, 12 yanvar tarixli sərəncamına uyğun olaraq çap edilən həm Azərbaycan, həm də dünya ədəbiyyatı silsiləsindən olan əsərlərin kitabxanadakı bütün nəşrlərinin elektron variantının hazırlanması başa çatdırıldı.

Həmin ildə kitabxananın fondunda qorunub saxlanılan qədim və nadir ədəbiyyat nümunələrinin nəşrləri olan 2879 kitab, müasir ədəbiyyat nümunələrinin, klassiklərimizin həm Respublikamızda, həm də ölkə hüdudlarımızdan kənarda çap olunan əsərlərinin rus və ingilis dilində olan nüsxələrindən 1570 kitabın elektron versiyası elektron kitabxanada müvafiq dildə, müvafiq bölmələrdə, həmçinin əlifba üzrə yaradılmış səhifələrdə yerləşdirilmişdir.

Bütün bu faktlar kitabxananın fondunda olan kitabların tammətnli elektron versiyalarının hazırlanması sahəsində işlərin planauyğun şəkildə həyata keçirilməsinə dəlalət edir. Bütünlükdə bu istiqamətdə 2006-2022-ci illər ərzində kitabxanada görülmüş işlər barədə məlumat aşağıdakı cədvəldə əks olunmuşdur.

2006-2022-ci illərdə Milli Kitabxananın fondunda olan kitabların tammətnli elektron versiyalarının hazırlanması

İllər	Azərbaycan dili	Rus dili	İngilis dili	Alman dili	Fransız dili	Şərq dilləri	Başqa dillər
2006	29		-	-	-	-	-
2007	98	29	-	-	-	-	-
2008	100	17	-	-	-	-	-
2009	108	32	-	-	-	-	-
2010	717	73	-	-	-	-	-
2011	4033	771	8	16	-	46	5
2012	4531	536	35	20	-	11	8
2013	2960	1859	49	18	2	155	15
2014	4197	1518	180	180	5	133	12
2015	4446	634	472	284	8	268	12
2016	2088	1044	1476	500	11	541	15
2017	3245	874	1380	598	9	133	11
2018	12441	1478	8728	1800	422	180	11
2019	3690	264	3800	900	50	20	8
2020	6172	310	78	63	31	25	3
2021	4927	410	890	215	28	12	4
2022	3922	655	344	122	34	6	2
Cəm (dillər üzrə)	57704	10504	17440	4716	600	1530	106
Ümumi cəm	92600						



Burada göstərilən dövr ərzində kitabxanada tammətnli elektron sənədlərin yaradılması üzrə fəaliyyət öz əksini tapmışdır. Belə ki, bu fəaliyyət başlayarkən 2006-cı ildə kitabxanada Azərbaycan dilində cəmi 29 adda kitabın elektron versiyası hazırlanmışdısa, 2007-2009-cu illərdə hazırlanan sənədlərin miqdarı 3 dəfə artaraq 100 ətrafında olmuşdu. 2010-cu ildə bu rəqəm təxminən 7 dəfə artaraq 717-ə çatmışdır. 2011-ci idə isə bu rəqəm əvvəlki ildən 3,5 dəfə, 2006-cı ildən isə 139 dəfə çox artmışdı. Sonrakı illərdə daxili proseslərlə əlaqədar bu rəqəm bəzən artmış, bəzən isə azalmış və nəticədə 2019-cu ildə 3690 olmuşdur. Belə artma digər dillərdə (rus, ingilis, alman, fransız və şərq dillərində) də müşahidə edilmişdir. Beləliklə, 2022-ci ilin sonunda kitabxanada əsas hissəsi Azərbaycan dilində olmaqla 92600 adda kitabın elektron versiyası mövcuddur. Bu kitablar "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" qanunun tələbləri nəzərə alınmaqla oxucuların istifadəsinə verilmişdir.

Milli Kitabxana tərəfindən elektron kitabxana yaradılan zaman bu işin əhəmiyyətli istiqamətlərindən biri fonduna daxil olan dövri nəşrlərdə dərc edilmiş məqalələrin tammətnli elektron versiyalarının hazırlanması olmuşdur. Bu istiqamətdə kitabxanada belə bir siyasət əsas götürülür ki, ilk növbədə fonda daxil olan dövri və ardı davam edən nəşrlərdə dərc edilmiş materiallar, daha sonra əvvəlki illərə aid nəşrlərdə dərc edilərək bu və ya digər xüsusiyyətinə görə maraq kəsb edən materiallar skan edilərək tammətnli elektron bazaya daxil edilsin. Kitabxanada bu istiqamətdə iş 2006-cı ildən başlayaraq ardıcıl olaraq aparılır.

"Milli Kitabxananın elektron bazasına daxil edilən dövri nəşrlərdə dərc edilmiş məqalələrin elektron versiyalarının illər üzrə miqdarı" adlı diaqramda öz əksini tapan rəqəmlərdən məlum olur ki, bu proses 2009-cu ildən daha da sürətli xarakter almış və indiyə qədər də bu temp qorunub saxlanılmışdır. 2022-ci ilin sonuna qədər Kitabxananın elektron bazasına 475554 məqalənin tammətni daxil edilmişdir.



Məlumdur ki, dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da bir çox elm və fəaliyyət sahələri üzrə tədqiqatlar aparan alim və mütəxəssislər ayrı-ayrı dövri və ardı davam edən nəşrlərin müəyyən nömrələrinə müraciət edir, elə-

cə də onların illik komplektlərindən geniş istifadə edirlər. Əksər hallarda dövri nəşrləri, xüsusən də qəzetləri turşuluq dərəcəsi yüksək olan ucuz kağız növlərində çap edirlər. Bu səbəbdən də, onların çap olunduğu kağız çox sürətlə xarab olur, kövrəkləşərək tikələrə bölünür və istifadə üçün yararsız hala düşür. Belə nəşrlərin orijinalının istifadəyə verilməsi onların məhv olmaq təhlükəsini yaradır. Onların gələcək zamana çatdırılması üçün istifadə edilən texnologiyalar içərisində ən mütərəqqi metodlardan biri onların komplektlərinin skan edilərək elektron variantda saxlanmasıdır. Kitabxanada 2007-ci ildə bir adda qəzet - "Əkinçi" qəzeti (1875-1877-ci illərdə çıxmış cəmi 56 nömrə) və 2 adda jurnal – "Babayi Əmir" jurnalı (1915-ci ildə çıxmış 31 nömrəsi), "Füyuzat" jurnalı (1906-1907-ci illərdə çıxmış 22 nömrə) skan edilərək kitabxananın serverinə yerləşdirilmişdi. Bundan əlavə, həmin ildə ayrı-ayrı dövri nəşrlərin 109 nömrəsinin (buraxılışının) elektron versiyası hazırlanaraq elektron kitabxanaya yerləşdirilmişdi. Bu fəaliyyət zamanı istifadəçilərin tələbatına da xüsusi diqqət yetirilir.

2008-ci ildə dövri nəşrlərin 56 nömrəsi skan edilərək elektron kitabxanaya əlavə edilmişdi. Kitabxananın bəhs etdiyimiz sahədə ən geniş miqyaslı iş apardığı illərdən biri 2010-cu il olmuşdur. Həmin il Azərbaycanda XIX əsrin sonu XX əsrin əvvəllərində nəşr edilmiş müxtəlif qəzet və məcmuələrinin tam komplektlərinin elektron versiyası yaradılmışdı. "Kommunist" qəzetinin də tam komplektinin elektron versiyasının yaradılmasına başlanmışdı. Bu intensiv fəaliyyət sonrakı illərdə də davam etdirilmişdi. Qəzet və jurnallar elektron variantda kitabxananın lokal şəbəkəsinə yerləşdirilmişdi. Bundan başqa Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivindən 1904-1921-ci illərdə çap edilən 34 adda qəzetin, "Kavkazskiy kalendar" məcmuəsinin 18, "Kavkazskiy sbornik" məcmuəsinin isə 22 cildinin surəti kitabxanaya gətirilmişdi. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsindən "Azərbaycan" (1918-1920) qəzetinin çatışmayan nömrələrinin elektron variantının hazırlanması məqsədi ilə surəti çəkilmişdi. "Ədəbiyyat" qəzetinin isə həm bütün nömrələri informasiya daşıyıcılarına köçürülüb, həm də 1934-2011-ci illər üzrə çap olunan bütün nömrələrinin bərpası işi başa çatdırılmışdı.

2006-2022-ci illərdə Milli Kitabxananın fondunda saxlanan XIX əsrin son rübündən başlayaraq müasir dövrə qədər nəşr edilmiş Azərbaycan dilində 132 adda (111221 nömrə), rus dilində 18 adda (18016 nömrə) və ingilis dilində 1 adda (78 nömrə), ümumilikdə 151 adda 129315 nömrə olmaqla qəzetin elektron versiyası yaradılaraq oxucuların istifadəsinə verilmişdir. Milli Kitabxananın fondunda saxlanaraq tam komplektlərinin və ayrı-ayrı nömrələrinin elektron versiyalarının yaradıldığı qəzetlərin sayı aşağıdakı cədvəldə öz əksini tapır.

2006-2022-ci illərdə Milli Kitabxananın fondunda saxlanaraq tam komplektlərinin və ayrı-ayrı nömrələrinin elektron versiyalarının yaradıldığı qəzetlər

Azərbaycan dilində		Rus dilində		İngilis dilində	
Qəzetin ad üzrə miqdarı	Elektron versiyası hazırlanmış nömrələrin sayı	Qəzetin ad üzrə miqdarı	Elektron versiyası hazırlanmış nömrələrin sayı	Qəzetin ad üzrə miqdarı	Elektron versiyası hazırlanmış nömrələrin sayı
132	111221	18	18016	1	78
Qəzetin ad üzrə ümumi miqdarı	151				
Elektron versiyası hazırlanmış nömrələrin ümumi miqdarı	129315				

Milli Kitabxanada aparılan bu iş Azərbaycan mətbuat sərvətinin qorunması üçün də böyük əhəmiyyət kəsb edir. Çünki bir çox köhnə qəzetlərin texniki vəziyyəti artıq o dərəcəyə gəlib çatmışdır ki, onlarla ancaq çox ehtiyatla davranmaq lazımdır ki, ovulub əzilməsinlər. Elektron versiya isə onları indiki istifadəçilər və gələcək üçün saxlayaraq istifadəsini təşkil etməyə şərait yaradır.

Kitabxanada 2006-2022-ci illərdə jurnal və ardı davam edən nəşrlərin ayrı-ayrı nömrələrinin və tam komplektlərinin elektron versiyalarının yaradılması sahəsində görülən işlər "2006-2022-ci illərdə Milli Kitabxananın fondunda saxlanaraq ayrı-ayrı nömrələrinin və tam komplektlərinin elektron versiyalarının yaradıldığı jurnal və ardı davam edən nəşrlər" adlı cədvəldə öz əksini tapmışdır.

2006-2022-ci illərdə Milli Kitabxananın fondunda saxlanaraq ayrı-ayrı nömrələrinin və tam komplektlərinin elektron versiyalarının yaradıldığı jurnal və ardı davam edən nəşrlər

Azərbaycan dilində		Rus dilində	
Dövri nəşrin ad üzrə miqdarı	Elektron versiyası hazırlanmış nömrələrin sayı	Dövri nəşrin ad üzrə miqdarı	Elektron versiyası hazırlanmış nömrələrin sayı
482	56312	58	10516
Dövri nəşrlərin ad üzrə ümumi miqdarı	540		
E-versiyası hazırlanmış nömrələrin ümumi miqdarı	66828		

Təqdim olunan cədvəldəki rəqəmlər göstərir ki, kitabxanada Azərbaycan dilində 482 adda jurnalın 56312 nömrəsinin elektron versiyası, rus dilində 58 adda jurnalın 10516 nömrəsinin elektron versiyası yaradılmışdır ki, bu da cəmi 540 adda jurnal və 66 828 nömrəni əhatə edir. Qeyd edilən jurnalların çox hissəsi Azərbaycan jurnalistikası üçün tarixi əhəmiyyət kəsb edən XX əsrin əvvəllərində nəşr edilmiş jurnallardır.

Yuxarıda gətirilən faktlar bəhs edilən dövrdə Milli Kitabxananın fondunda saxlanan və yeni abunə edilən dövri nəşrlərin elektron versiyalarının yaradılması sahəsində böyük həcmdə işlərin görülməsini sübut edir.

Kitabxananın fəaliyyətinin elektron kitabxana yaradılması istiqamətində həyata keçirdiyi işlərin mühüm istiqaməti fondunda olan dissertasiyaların və dissertasiya avtoreferatlarının tammətnli elektron versiyalarının hazırlanması və onların istifadəsinin təşkilidir.

Məlumdur ki, sovet dövründə M.F.Axundov adına Respublika Dövlət Kitabxanası dissertasiya və avtoreferatlardan ibarət fond formalaşdırmırdı. Bu istiqamətdə işlər Azərbaycanda elmi dissertasiyaların hazırlanması və müdafiəsi sahəsində müstəqil sistemin yaradılmasından, yəni 1993-cü ildən etibarən başlamışdır. Azərbaycan Respublikası Elm və Texnika Komitəsinin qərarına əsasən respublikada müdafiə edilən dissertasiyaların referatları, sonra isə dissertasiyaların özləri bu kitabxanaya verilməyə başladı ki, bu sənədlər kitabxananın fondu daxilində ayrıca bölmə kimi formalaşdırılmağa başladı. Belə bir fondun formalaşdırılması kitabxanada kompüterləşdirmə, elektronlaşdırma və onun tərkib hissəsi kimi elektron kitabxana yaradılması strategiyasına uyğun idi. Milli Kitabxanada 2009-cu ildən etibarən dissertasiyaların və dissertasiya avtoreferatlarının

tammətnli elektron versiyalarının hazırlanması və bu sənədlərin elektron kitabxananın tərkibinə əlavə edilməsinə başlandı.

Kitabxanada dissertasiyaların və avtoreferatların elektron versiyalarının hazırlanması və elektron kitabxanaya əlavə edilməsi prosesinin gedişi "Milli Kitabxanada dissertasiyaların və avtoreferatların elektron versiyalarından ibarət sənəd fondunun formalaşması" adlı cədvəldə öz əksini tapmışdır.

Milli Kitabxanada dissertasiyaların və avtoreferatların elektron versiyalarından ibarət sənəd fondunun formalaşması

İllər	Dissertasiyaların elektron versiyaları		Avtoreferatların elektron versiyaları		Cəmi
	Azərbaycan dil.	Rus dil.	Azərbaycan dil.	Rus dil.	
2009	960	504	605	11	2080
2010	404	183	124	9	720
2011	624	128	103	5	860
2012	970	175	121	8	1274
2013	761	526	97	4	1388
2014	738	511	147	9	1405
2015	617	627	111	16	1371
2016	626	785	195	25	1631
2017	360	577	97	10	1044
2018	700	394	199	101	1394
2019	644	256	96	160	1156
2020	136	-	27	-	163
2021	334	183	113	9	639
2022	274	112	21	5	412
Cəmi	8148	4961	2056	372	15537



Cədvəldəki rəqəmlərin təhlili göstərir ki, 2009-cu ildən başlayaraq formalaşdırılan bu fondda 2022-ci ilin sonunda cəmi 15537 adda elektron sənəd olmuşdur. Bunlardan 8148 adda Azərbaycan dilində, 4961 adda rus dilində olan dissertasiyalardır. Avtoreferatlara gəldikdə isə onlardan 2056 adda avtoreferat Azərbaycan dilində, 372 adda avtoreferat isə rus dilindədir.“Elektron dissertasiya fondunun təşkili və ondan istifadə” şöbəsində həmin elektron sənədlərdən istifadə üçün lazımi şərait yaradılmışdır.

Sovet dövründə Azərbaycanın əsas kitabxanası olaraq müstəqillik dövründə milli status almış kitabxana həmişə özünün fondunun zənginliyi, burada saxlanılan sənədlərin növ müxtəlifliyi ilə fərqlənmişdir. Burada saxlanılan və istifadəsi təşkil edilən sənədlər içərisində XIX əsrdən başlayaraq XX əsrdə geniş yayılmış audio sənəd növü olan qrammofon və patefon valları (əslində isə diskləri) geniş təmsil edilmişdi. Vaxtı ilə kitabxanada bu informasiya daşıyıcısı növündən istifadə edilməsi üçün ayrıca zal da var idi. XX əsrin 60-cı illərindən etibarən lentli, daha sonra kasetli maqnitofonların, onların ardınca videomaqnitofonların istifadəyə daxil olması belə informasiya daşıyıcılarının kitabxana fondlarında da toplanmasına və istifadəsinin təşkilinə səbəb oldu. Bundan əlavə, keçmiş SSRİ-nin

kitabxanalarında XX əsrin 70-ci illərindən başlanan texniki yeniləşməyə uyğun olaraq, ölkənin bir çox kitabxanalarında əhəmiyyətli sənədlərin ehtiyat versiyalarının yaradılması, böyük həcmli sənəd fondlarının (xüsusilə də elmi-texniki məzmunlu) kompaktlaşdırılması üçün çap sənədlərinin, nəşrlərinin mikrosurətlərinin - mikrofilm və mikrofişlərinin yaradılması texnologiyaları tətbiq edilirdi. Lakin adı çəkilən informasiya daşıyıcılarının, sənəd növlərinin bir sıra texniki qüsurları var. Ən başlıcası, ardıcıl istifadə nəticəsində onların texniki vəziyyəti pisləşir və tədricən oxunmaz hala düşür. Bu isə çox halda unikal nəşrlərin, sənədlərin məhvinə gətirib çıxarır. Bundan əlavə, həmin sənədlərdən istifadə etmək üçün istifadə edilən orijinal cihazların əksər hissəsi artıq istehsal edilmir, onların istismar xüsusiyyətləri xeyli aşağı səviyyədədir. Kitabxanada həmin növ informasiya daşıyıcılarının toplanması və istifadəsinin təşkili ilə müvafiq şöbə məşğul olurdu. Elektron sənədlər, informasiya daşıyıcıları meydana gəldikdən sonra dünyanın qabaqcıl ölkələrinin bir çox kitabxanalarında belə sənədlərin elektron versiyalarının yaradılmasına başlandı ki, bu da yuxarıda qeyd edilən problemləri aradan qaldırmağa imkan verirdi. Milli Kitabxananın texniki yenidənqurmasının, elektronlaşması konsepsiyasının vəzifələrindən biri də adı çəkilən növlü sənədlərin elektron versiyalarının yaradılması, onların elektron kitabxanaya daxil edilməsi ilə istifadələri üçün daha əlverişli imkanların yaradılması idi.

Milli Kitabxanada 2009-cu ildən etibarən qrammofon vallarının elektron versiyalarının hazırlanması və elektron kitabxanaya daxil edilərək istifadəsinin təşkilinə başlandı. Bu sahədə görülən işlərin nəticələri aşağıdakı rəqəmlərdə öz əksini tapmışdır.

Milli Kitabxananın fonotekasında 29732 qrammofon valı qorunub saxlanılır. Onların formata görə tərkibi aşağıdakı kimidir:

I format – 1763 ədəd;

II format – 4019 ədəd;

III format – 23950 ədəd.

Kitabxanada elektron kitabxana yaradılması istiqamətində proqrama uyğun olaraq burada audio sənədlərin səs-musiqi yazılarının da elektron versiyalarının yaradılması sahəsində ardıcıl iş aparılır. 2009-cu ildə Milli Kitabxananın Fonotekasında 100 ədəd, 2010-cu ildə 654 qrammofon valı rəqəmsallaşdırılmışdır. Sonrakı mərhələdə isə 2069 ədəd qrammofon valının elektron versiyası yaradılmışdır. Hal-hazırda bu istiqamətdə elektronlaşma işi davam edir.

Hazırda Milli Kitabxananın audio elektron sənədlərdən ibarət verilənlər bazasında 20716 fayl toplanıb (həcmi-762 Gb). Onların tərkibi aşağıdakı kimidir:

1. Azərbaycan musiqisi – 5604 fayl (120 Gb);
2. Avropa – Qərb musiqisi – 8012 fayl (345 Gb);

3. Rus musiqisi – 7100 fayl (297 Gb).

Göründüyü kimi, Milli Kitabxanada elektron kitabxananın bu vacib tərkib hissəsinin yaradılması istiqamətində ardıcıl və intensiv iş aparılır.

XX əsrin son rübündən etibarən kompüterləşmənin, elektron nəşriyyat texnologiyalarının geniş yayılması müəllif və nəşriyyatların kitabxanalarla əlaqələrinə yeni aspektlər gətirmişdir. Bir sıra müəlliflər, nəşriyyatlar öz əsərlərinin, məhsullarının elektron versiyasının oxucular tərəfindən istifadə edilməsi üçün özləri kitabxanalara təqdim edirlər. Təbii ki, bu zaman müəyyən şərtlər gözlənir. Belə istifadənin adətən üç müxtəlif hüquqi-texnoloji rejimi olur. Birincidə hüquq sahibi öz əsərinin kitabxana istifadəçilərinə informasiya daşıyıcısını kitabxananın kompüterlərində istifadə edilməsi şərti ilə verir. İkinci rejimdə hüquq sahibi öz əsərinin elektron variantının daxili şəbəkəyəintranetə yerləşdirilməsinə, üçüncüdə isə kitabxananın internet səhifəsinə yerləşdirilməsinə icazə verir.

Milli Kitabxananın praktikasında hər üç varianta təsadüf edilir. Artıq xeyli vaxtdır ki, ölkəmizin bir çox müəllifləri öz əsərlərinin elektron versiyalarını kitabxanaya təqdim edirlər. Təqdim edilmə zamanı bir sıra sənəd prosedurları icra olunur ki, bu da kitabxanaya sonradan müəlliflik hüquqları ilə bağlı problemlərdən kənar olmağa imkan verir. Bəzi hallarda kitabxanaya təqdim edilən sənədin kodlanma metodu, proqram xüsusiyyəti və s. ondan kitabxanada istifadə edilməsində çətinlik yaradır. Bu halda kitabxananın mütəxəssisləri həmin problemi aradan qaldırır, lazım gəldikdə formatı dəyişirlər.

Son onilliklər ərzində yeni informasiya texnologiyalarının mənimsənilməsi və tətbiqi nəticəsində Azərbaycan kitabxanaçılıq praktikasında hansısa vahid əlamətə görə birləşən sənədlərin, nəşrlərin bir kompüter şəbəkə məkanına toplanması, ayrı-ayrı hadisə və mövzulara dair, görkəmli şəxslərin əsərlərinin, onların həyat və yaradıcılığını əks etdirən nəşrlərin, audiovizual materialların elektron versiyalarının hazırlanması və toplanması, tərtibi, bir başlıq, bəzən isə domen altında axtarış sistemi qurulması yolu ilə hasil edilən Elektron məlumat bazalarının yaradılması geniş miqyas almışdır. İnformasiyanın təqdim edilməsinin bu metodu kitabxananın istifadəçilərinə onu maraqlandıran predmet (mövzu, istiqamət, hadisə, şəxs və s.) haqqında ən müxtəlif təqdimat formasında, sənəd tipində olan informasiyanı bir ünvandan, məsələn, kitabxananın intranet şəbəkəsindən və ya internet saytından əldə etməyə imkan verir. Bir sıra hallarda kitabxananın mütəxəssisləri belə məlumat bazalarını yaradan zaman nəinki kitabxananın öz fondunda olan sənədlərdən, eləcə də digər kitabxanalarda olan materiallardan, internet resurslarından (təbii ki, müəlliflik hüququnun şərtləri nəzərə alınmaqla) istifadə edirlər. Bir sıra elektron məlumat bazaları vardır ki, hazırlanıb istifadəyə verildikdən sonra da onun üzərində iş qurtarmır, onun predmetinə aid olan yeni sənədlər meydana gəldikcə bazanın müvafiq bölməsinə

əlavə edilir, lazım gəldikdə bazanın özünün strukturunda dəyişikliklər edilir. Elektron məlumat bazalarında vizual materiallar, şəkillər, audio, video fayllar bazanın məqsədinə, təyinatına görə strukturlaşdırılır, düzülür, müəyyən tərtibat verilir, axtarış sistemi qurulur. Milli Kitabxanada bu metoddan geniş istifadə edilir. Kitabxanada yaradılmış ilk belə elektron məlumat bazası 2008-ci ildə hazırlanmış "Mir Cəlal irsi" adlı məlumat bazasıdır. O zamandan bəri kitabxanada bu istiqamətdə işlər geniş vüsət almış, metodika cilalanmış, zəngin təcrübə toplanmışdır. Az bir zaman ərzində Milli Kitabxanada yaradılmış "Heydər Əliyev irsi", "Zərifə xanım Əliyeva", "Mehriban xanım Əliyeva" və digər elektron məlumat bazaları oxucular üçün dəyərli mənbələrdir.

Milli Kitabxananın formalaşdırdığı elektron sənəd bazasında Musiqi kitabxanası böyük əhəmiyyət kəsb edir. "Musiqi kitabxanası" adlı elektron sənəd toplusu "Musiqi ədəbiyyatı", "Notlar" və "Səsyazıları" bölmələrini əhatə edir. "Musiqi ədəbiyyatı" və "Notlar" bölmələrində Milli Kitabxananın fondunda olan musiqi ədəbiyyatları elektron resursları ilə istifadəçilərə təqdim olunur. Azərbaycan, rus və digər dillərdə olan notlar da bölməyə daxil edilib."Səsyazıları" bölməsində isə həm Azərbaycan bəstəkarlarına, həm də Azərbaycan xalq musiqisinə dair səsyazıları verilib. Azərbaycan xalq musiqisi yarımbölməsində muğamlar, zərb muğamları və şikəstələr, Azərbaycan xalq mahnıları, qəhrəmanlıq təranələri, Azərbaycan xalq rəqs musiqisi və aşıq musiqisi təqdim olunur. Bazada həmçinin Azərbaycanın görkəmli bəstəkarları haqqında məlumatlar da öz əksini tapmışdır.

Milli Kitabxananın formalaşdırdığı elektron sənəd bazasında son illərdə tariximizə, mədəniyyətimizə, Qarabağ məsələsinə və digər mühüm sahələrə dair elektron virtual sərgilər də yer alıb. Kitabxana tərəfindən hazırlanan virtual sərgilərdə materiallar tam mətnləri ilə yerləşdirilir.

Kitabxananın elektron sənəd bazasında kitabxananın nəşrlərinin, onların tam elektron mətnlərinin verilməsinin də əhəmiyyəti vardır. Belə ki, bu nəşrlər "Kitabxananın nəşrləri" bölməsində yerləşdirilir və istənilən kitabxana və ya oxucu həmin bölməyə daxil olaraq onlardan bəhrələnə bilir. Kitabxananın bütün nəşrləri tam şəkildə nəşrə hazır olduqda ilk öncə virtual rejimdə respublika və dünya kitabxanalarının və kitabxanaçılarının, oxucuların sərəncamına verilir.

Gətirilən faktlar sübut edir ki, son illər ərzində Milli Kitabxanada tammətnli sənəd-informasiya resurslarının yaradılması və istifadəçilərə təqdim edilməsi istiqamətində böyük həcmdə işlər həyata keçirilmişdir.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Azərbaycan Milli Kitabxanasının 2006-2022-ci illər üçün hesabatları.

2. Tahirov, K. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: dərs vəsaiti /Kərim Tahirov; elmi red. A.Xələfov; rəyçi.: K.Aslan, P.Kazımi; Azərb. Resp. Təhsil Nazirliyi, BDU.- Bakı: Bakı Universiteti, 2013.- 212 s.

3. Tahirov, K. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi: 1923-2008-ci illər /Kərim Tahirov; elmi red. A.Xələfov; ixtisas red. A.Əliyeva-Kəngərli; red.: N.İsmayılov, K.Aslan.- Bakı: Ulu, 2009.- 218 s.

4. İsmayılova, Ə.İ. Azərbaycan Milli Kitabxanasında koronavirus (COVİD-19) pandemiyası şəraitində elektron informasiya xidmətinin təşkili /Ə.İsmayılova; elmi red. K.Tahirov; red. E.Nəciyev; Azərb. Milli Kitabxanası.- Bakı: 2021.- 231 s.

İngilis dilində

5. Borgman, C.L. What are digital libraries? /Competing vision in Information Processing and Management.- 1999.- 35 (3).- p.227-243.

6. Managing digital resources in libraries /ed. Audrey Fenner.- Binghamton, New York: Haworth inform. Press.- 2005.- 186 p.

7. Witten, I.H. How to Bild Digital Library /I.H.Witten, D.Bainbridge.- San-Fransico: Morgan Kaufman Publishers.- 2003.- 518 p.

Rus dilində

8. Библиотечные каталоги /под ред. Г.И.Чижковой.- 2-е изд, перераб. и доп.- Москва: Книга, 1977.- 302 с.

9. Брежнева, В.В. Информационное обслуживание: учебное пособие /В.В.Брежнева, Р.С.Гиляревский.- Санкт-Петербург: Профессия, 2012.- 368 с.

10. Вершинин, М.И. Электронный каталог: проблемы и решения /М.И.Вершинин.- Санкт-Петербург: Профессия, 2007.- 230 с.

11. Электронная библиотека: интеграция информационных ресурсов /науч. ред. Е.Д.Жабко.- Санкт-Петербург: ФГБУ «Президентская б-ка им. Б.Н.Ельцина», 2011.- 191 с.

12. Электронные документы: создание и использование в публичных библиотеках: разновидности электронных документов, электронные библиотеки и коллекции, технология работы с электронными документами, управление фондами электронных изданий, справочно-библиог-

рафическое обслуживание читателей в электронной среде: справочник /Александрова О.А. и др.- Санкт-Петербург: Профессия, 2007.- 663 с.

13. Национальная библиотека: словарная статья /Библиотечная энциклопедия //Российская государственная библиотека.- Москва: Из-во «Пашков дом», 2007.- 1300 с.

Elektron resurslar

14. Горный, Е. Развитие электронных библиотек: мировой и российский опыт, проблемы, перспективы /Е.Горный, К.Вигурский. [Элект. рес.] /URL: http://ecsocman.hse.ru/rubezh/msg/18367563.html

15. Digital Libraries. November 11. 2002: [Electronic resource] /URL: https://www.nsf.gov/news/news_summ.jsp?cntn_id=103048

16. Digital Library Federation: [Electronic resource] /URL: www.diglib.org

17. Digital Library Federation: [Electronic resource] /URL: www.diglib.org/about/

18. Hart, M. Information about Project Gutenberg: [Electronic resource] /URL: http://www.teslej.org/wordpress/issues/volume1/ej01/ej01in/